# Münasibətlərin mövcud vəziyyəti barədə fikir mübadiləsi aparılıb

**Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının 17-ci konfransında iştirak üçün Əlcəzairə səfəri çərçivəsində Oman Sultanlığının Şura Məclisinin sədri Şeyx Xalid bin Hilal Al Mavali ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin mövcud vəziyyəti barədə fikir mübadiləsi aparılıb. Qanunverici orqanların ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsində müsbət rolu vurğulanıb, o cümlədən, beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq, qarşılıqlı dəstəyin əhəmiyyəti qeyd olunub. Söhbət zamanı Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti, bu platformanın növbəti konfransına hazırlıqla bağlı görülən işlər barədə danışılıb.

Görüşdə Sahibə Qafarova həmçinin yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktı haqqında məlumat verib, Azərbaycanın bu məsələnin şəffaf və obyektiv araşdırılmasını tələb etdiyini bildirib, bir çox ölkələrin bu terror aktını şiddətlə qınadığını diqqətə çatdırıb.

Söhbət zamanı Milli Məclisin Sədri Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbədən sonra regionda yaranmış vəziyyət, işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı quruculuq və bərpa işləri barədə ətraflı danışıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 31 yanvar.- S.8.